**UOT 821.512.162.**

**Təranə VERDİYEVA**

AMEA Gəncə bölməsinin doktorantı
tarana.verdiyeva.83@mail.ru

# MİLLİ AZADLIQ SİMVOLU – GƏNCƏ

**Açar sözlər:** *Gəncə, milli dəyərlər, azadlıq ideyaları, istiqlaliyyət*
**Key words:** *Ganja, national values, ideas of freedom, independency*
**Ключевые слова:** *Гянджа, национальные ценности, идеи свободы, независимость*

**Giriş.** Azərbaycanın əlverişli coğrafi şəraiti, strateji cəhətdən əhəmiyyətli ərazidə yerləşməsi, yeraltı və yerüstü sərvətləri hələ lap qədimlərdən yadellilləri cəlb etdiyindən buraya basqınlar, müdaxilələr olmuş, ölkə dəfələrlə işğal edilsə də, bütün çətinliklərə baxmayaraq, ayrı-ayrı dövrlərdə xalq öz müstəqil dövlətini yaratmış, ölkə istiqlaliyyətinə qovuşmuşdur. Bunu daha aydın dərk etmək üçün baş verən tarixi olayları ötəri izləmək kifayətdir. Ərəb işğalı, səlcuqların yürüşləri, monqol-tatar basqınları, Əmir Teymurun yürüşü... Bütün bunlara baxmayaraq, istənilən dövrdə xalq əsarət boyunduruğunu qəbul etməmiş, ağır itkilər hesabına olsa da, düşmən qüvvələrini zəiflədərək azadlığa doğru irəliləmişdir. Milli azadlıq mübarizəsi xalq kütlələrinin həmişə qəlbində yaşamış, onlara düzgün yol göstərmişdir. Sadə xalq kütlələrini milli azadlıq mübarizəsinə ruhlandıran ayrı-ayrı böyük şəhərlər, şəhər-qalalar milli azadlığın simvolu, simgəsi, ədalət və əmniyyətin dayağı, qeyrət və qürurun məbədi kimi tanınmış, saysız-hesabsız nəğmələrdə, mahnılarda xatırlanmışdır.

**İstiqlaliyyət məbədi Gəncə.** Zəngin tarixə malik Gəncə şəhəri də Azərbaycanın qədim yaşayış məskənlərindən və böyük şəhərlərindən biridir. Bu haqda XIV əsrdə yaşamış görkəmli şair, tarixçi, coğrafiyaşünas Həmdullah Qəzvini yazır:

Seçmə şəhərlər var cəmi bir neçə,
Bütöv xəzinədir Arranda Gəncə.
Varı bol, suyu saf, barlı, bəhrəli,
İqlimi mülayim, torpağı gencə [6, s.3].

Xəzinə kimi qiymətləndirilən bu şəhər tarix boyu Azərbaycan ərazisindəki dövlətlərin paytaxtı, elm, mədəniyyət və ticarət mərkəzi kimi təkcə Azərbaycanda deyil, Yaxın Şərq və Şərq ölkələrində də tanınmışdır.

Gəncə dəfələrlə müdaxiləçilər tərəfindən yandırılıb dağıdılsa da, əhali onu böyük əzmkarlıqla abadlaşdırıb əvvəlkindən daha artıq möhtəşəmliyinə nail olmuşdur. Bu qəhrəman şəhər neçə-neçə faciənin şahidi olsa da, xalqın qəlbində milli özünüifadənin, azadlığın simvolu kimi qalmış, milli dəyərlərə, milli düşüncəyə böyük və tükənməz sevgi yaratmışdır. Xalq bu həqiqəti tarixin müxtəlif kəsimlərində düşmənlə qeyri-bərabər döyüşlərdə görmüş və dərk etmişdir. Cavad xanın rus qoşunları ilə döyüşdə həlak olmasından sonra – 1926-cı ilin 26

iyulunda onun oğlu Uğurlu xanın yerli əhalinin köməyilə Gəncəni yenidən ələ alaraq qısa bir müddətə də olsa xanlığı bərpa edə bilməsi gəncəlilərin vətənpərvərlik dəyərlərinə olan yüksək sevgisinin bariz nümunəsidir [7, s.9]. Gəncənin şanlı tarixində iz buraxmış bu və buna bənzər bir çox hadisələr deməyə əsas verir ki, Gəncə adı xalq kütlələrinin hər fərdinin yaddaşında milli qürur, azadlıq və istiqlaliyyət simvolu kimi dərin iz buraxmışdır. Məhz bu inam, ümumxalq sevgisi Gəncənin dəfələrlə dağıntılardan sonra qalxmasına səbəb olmuşdur. Bu məğrur şəhərin xalqın nəzərində istiqlaliyyətin məbədi olması yadelliləri vahiməyə saldığından Gəncə adını xalq kütlələrinin qəlbindən tamamilə silib yox etmək məqsədilə onu dəyişdirməyi qərara almışdılar. Buna görə də gözəl və qədim şəhərin adı bir neçə dəfə dəyişdirilmiş, xalqa yad olan adlarla adlandırılmış, onun qədim adının unutdurulmasına təşəbbüs göstərilmişdir. Lakin bütün bu təsirlər, müdaxilələr Gəncənin əsl mənşəyini, simasını, öz varlığını dəyişdirə bilmədi. Şeirlərində Azərbaycan dilinin gücündən bəhrələnib milli varlığımızın bədii əksini verən görkəmli şairimiz Hüseyn Arifin dediyi kimi:

Nələr çəkməyibdi başın həyatda,
Kimlər meydan açıb at oynatmadı.
Adını dəyişmək mümkün olsa da,
Zatına toxunmaq mümkün olmadı.

Duyub acısını qırğının, qanın
Yada diz qatlayıb, boyun əyməyib.
Dost kimi Gəncəyə arxalananın
Çətində kürəyi yerə dəyməyib [5, s.26].

**Gəncə adının dəyişdirilməsi.** Gəncənin çox basqınlara və zərbələrə məruz qalması şəhər ərazisində xarabalıqlar yaratdığından Səfəvi hökmdarı I Şah Abbas şəhərin qədim yerindən xeyli aralıda yeni şəhər saldırmış, Gəncə XVII yüzillikdə onun adı ilə Abbasabad da adlandırılmışdır. Bu hadisə tarixi mənbələrdə belə qeyd edilir: "XVI-XVII əsrlərdə baş verən Səfəvi-Osmanlı müharibələri zamanı Gəncə dağıdıldığı üçün Şah Abbas tərəfindən şəhər əvvəlki yerindən bir fərsəx (təxminən 6 km) aralıda yenidən salınmışdır" [15]. Gəncə yeni əraziyə köçəndən sonra orada böyük Bazar meydanı, iki üstüörtülü bazar (Tün bazarı, Məscid bazarı), karvansaralar (Məscid karvansarası, Uğurlu bəy karvansarası), saraylar (Xan sarayı, İmarət), hamamlar (Məscid hamamı, Pəhləvan hamamı) və günbəzli ev tipli çoxlu yaşayış evləri ucaldılmışdı. Təzə şəhərin salınmasında öz xidmətlərini gələcək nəsillərə çatdırmaq məqsədilə şah şəhəri Abbasabad adlandırmışdır [3, s.68].

XIX yüzilliyin əvvəllərindən Çar Rusiyasının Cənubi Qafqaza marağı artmağa başladığından rus qoşunları bu əraziləri yavaş-yavaş işğal etməyə başladı. Azərbaycanda feodal dağınıqlığı olduğundan vahid dövlət yox idi, bir neçə xanlıq mövcud idi. Düşmən bu pərakəndəlikdən dərhal faydalandı, 1804-cü ildə Gəncə xanlığının direnişi, Cavad xanın son damla qanı qalana qədər vuruşub qəhrəmancasına həlak olması çarı da, Gəncəni mühasirəyə alan rus qoşunlarının komandanı Sisianovu da qorxuya saldığından onun adını dəyişdirib çarın arvadı Yelizaveta Alekseyevnanın şərəfinə Yelizavetpol adlandırdılar [3, s.105]. Gəncə adı isə yasaq edildi. Bu adı çəkənlər cərimə ödəməli idilər. Bunla işğalçılar xalqa "Gəncə" adını unutdurmağa çalışırdılar. Ancaq "Gəncə" xalqın mənəviyyatı, milli mənliyi, tarixi, milli azadlıq mübarizəsi ilə bağlı olduğundan bu ad unudulmadı, əksinə, adamların qəlbində daha dərin iz buraxdı, milli özünüdərkin, milli istiqlaliyyətin simvolu oldu.





Min qanun hökmündən güclüdür tarix,
Bu nə oyuncaqdır, nə əyləncədir.
Min dəfə adını dəyişsək də biz,
Yenə el dilində Gəncə Gəncədir [13, s.32].

Azərbaycan xalqının milli düşüncəsindən, yaddaşından silinməyən Gəncə adının yenidən qaytarılması məsələsi məşəqqətli keçən 114 ildən sonra bir daha müzakirə obyektinə çevrildi. 1918-ci il iyulun 30-da Azərbaycan Xalq Cümhuriyyəti bir tarixi haqsızlığı – Gəncənin Yelizavetpol adlandırılmasını hökumət iclasının müzakirəsinə çıxardı [9, s.68]. Bu təklif heç müzakirə olunmadan yekdilliklə qəbul edildi və Gəncə adı yenidən qaytarıldı. Sevindirici haldır ki, 1804-cü ildə Gəncə adının Yelizavetpola keçirilməsi haqqında fərman Rusiyada – Peterburqda verildiyi halda, Yelizavetpolun yenidən Gəncə adlandırılması haqqında qərar 1918-ci il iyulun 30-da məhz həmin dövrdə AXC-nin paytaxtı olan Gəncədə verildi [8, s.279]. Bu hadisə Azərbaycan xalqının tarixi yaddaşının, milli mənliyinin təntənəsi idi.

Gəncə şəhərinin adının son dəfə dəyişdirilməsi isə Sovet hakimiyyətinin 30-cu illərinə təsadüf edir. Sovet hakimiyyətinin çinovnikləri Gəncə adının necə möhtəşəm və güclü təsirə malik olduğunu iki tarixi hadisə ilə yaxşı anlamışdılar. Hər iki olay Sovet hakimiyyətini qorxuya salmışdı. Bunlardan biri 1918-ci il iyunun 16-dan sentyabrın 16-na qədər Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı elan edilməsi, digəri isə 1920-ci il may ayının 25-26-da Gəncədə Azərbaycan Milli Ordusunun bölmələri tərəfindən başladılan və 10-12 min üsyançının silahlı çıxışı ilə qalxan Gəncə üsyanı idi [12, s. 261].

Gəncə üsyanının Azərbaycan xalqının mübarizlik tarixində çox mühüm yeri vardır. Bu üsyan Azərbaycanın parçalanmasına, müstəmləkəçilik əsarətinə qarşı xalqın ən böyük və güclü müqaviməti idi. İstiqlal aşiqi, istedadlı yazıçı və jurnalist Ceyhun Hacıbəylinin Gəncə üsyanı haqqında mülahizəsi də diqqətəlayiqdir. "Gəncə üsyanı millətimizin şərəf və namusunun yenidən qəsdi-etibar qazandığı bir dastandır" [1, s.425]. İstiqlal uğrunda qaldırılmış bu müqavimət hərəkatı gələcək nəsillər üçün də örnək oldu.

Tarix qisas aldı tarixçilərdən,
Yaşadı yaddaşda Gəncə üsyanı.
Öldük, içimizdə ölmədi Vətən,
Torpaqda və daşda Gəncə üsyanı [6, s.24].

Bu olaylar Gəncənin xalqın ruhunda, canında azadlıq ideyalarının yaşadığını və ölməzliyini sübut edirdi. Buna görə də 1935-ci ildə Gəncənin adı yenidən dəyişdirildi. Sergey Mironoviç Kirovun şərəfinə Kirovabad adlandırıldı [4, s.12]. Sovet hakimiyyətinin nəhəng təbliğat və təşviqat maşını "qardaşlıq və dostluq" ideologiyasını təbliğ edir, xalqı necə olur-olsun dədə-baba adətlərindən, soy-kökündən ayrı salmaq, hətta adamlara milli mənsubiyyətini unutdur-

maq məqsədi güdülürdü. Buna görə də sovet ideologiyası Sovetlər İttifaqı məkanında "bütün xalqların gələcəkdə sovet xalqına qovuşacağı" ideyasını irəli sürürdü, hətta bunu beyinlərə yeritmək məqsədilə ali məktəblərdə tədris edilməsi üçün "Elmi kommunizm" adlanan cəfəng bir dərslik də yazılmışdı. Təbii ki, burada "sovet xalqı" deyiləndə ruslar nəzərdə tutulurdu. Yəni Sovetlər İttifaqı ərazisində yaşayan bütün xalqlar ruslaşdırılmalıdır.

**Gəncə kəlməsinin yaşaması.** Ruslaşma ideologiyasını var gücü ilə tətbiq edən Sovet hökuməti xalqımızın milli təfəkkürünə təsir edə bilmədi. Bu dirəniş özünü Azərbaycan ziyalılarının simvola çevrilmiş adlarımızın, tariximizin qorunmasındakı fəaliyyətlərində büruzə verirdi. Bu istiqamətdə görülən işlərdə poeziyanın rolu danılmazdır. Milli özünütəsdiqin rəmzi olan Gəncə adının yenidən bərpa olunmasına çalışan millətpərəst ziyalılarımız qədim şəhərin adına şeirlər yazır, musiqilər bəstələyirdilər. Həmin dövrdə Hüseyn Arif, Süleyman Rüstəm, Əhməd Cavad, Osman Sarıvəlli, Rəsul Rza kimi çox sayda şairlərimiz qədim diyarın dahilər yetirən torpağını, insanı valeh edən təbiətini, qəhrəmanlığı ilə seçilən oğullarını, qəlblərə məhəbbət bəxş edən gözəllərini ustalıqla tərənnüm edərək bütün bu fikirlərini "Gəncə" adı ilə tamamlamışlar. Əhməd Cavadın "Gəncəyə ithaf" şeirində olduğu kimi:

Beş il bağlarında gəzdim, əyləndim,
İçdikcə doymadım suyundan, Gəncə!
Sənsən salan məni bu dadlı dərdə,
Boynumda borcun var, verimmi, Gəncə?!
Yaşıl bağlarının gül xiyabanı,
Cənnətdən də bil ki, yaxşıdır, Gəncə! [2, s.207]

Şair Gəncəni əvəzsiz gözəlliklərinin verdiyi rahatlığa görə cənnətə bənzədir.

Bu möhtəşəm şəhərin cənnəti xatırladan təbiətini, qonaqpərvər, etibarlı insanlarını vəsf edən dəyərli sənətkarlarımızdan biri olan Hüseyn Arif isə belə yazır:

Qucaqlayıb həm aranı, həm dağı,
Öz çəməni, öz bostanı, öz bağı.
Göy gölünün əskilməyən qonağı
Ana Kəpəz havadarı Gəncənin.

Küçələri yaraşıqlı, bəzəkli,
Adamları bir-birindən ürəkli.
Dost yanında gülərüzlü, çörəkli
Pozulmayıb etibarı Gəncənin [5, s.27].

**Gəncəli ziyalı.** Gəncəyə dərin hörmətini, sonsuz məhəbbətini yazdıqları şeirlərlə bildirən şairlərimizin adlarını və onların bədii yaradıcılıq nümunələrinin sayını istədiyimiz qədər artıra bilərik. Belə dəyərli ziyalılar içərisində Gəncəyə olan xüsusi diqqəti və sevgisini fəaliyyətində əks etdirən yurduna bağlı insanlar da vardır. Onlardan biri Tofiq Məsim oğlu Bağırovdur. Bu ziyalının şəxsiyyətini ən gözəl şərh edən isə akademik Rafael Hüseynovdur: "Örnək insan –





unudulmaz Tofiq müəllim – təmkinli, hər sözünün, hər hərəkətinin yerini bilən müdrik ağsaqqal, riyadan, qəlplikdən çox-çox uzaq olan pak bir ziyalı, təpədən-dırnağacan səmimiyyət dolu vətənpərvər, hər soydaşımıza nümunə olası qiymətli azərbaycanlı!" [10, s.3].

Tofiq Bağırov Azərbaycanın "Müstəqillik Aktı"nın müəlliflərindən biri olub, "Gəncənin Fəxri vətəndaşı" adına layiq görülmüşdür. O, 1962-ci ildə Gəncə şəhərinin birinci katibi vəzifəsinə təyin edilmişdir [10, s.136]. Dahi Nizaminin yaşayıb-yaratdığı Gəncənin Kirovabad deyə anılması onu çox narahat edirdi. Bu fikirləri Azərbaycan ziyalıları ilə bölüşürdü. Qəlbi Gəncə sevgisiylə döyünən, onun tarixini yaxşı bilən Tofiq Bağırovun söhbətləri Xalq şairi Bəxtiyar Vahabzadəni bu sözləri deməyə vadar etmişdi: "O, içindən alovlanırdı. Deyirdim ki, sənin bu qədər məlumatın var, bu qədər biliyin var. Bunlar hamısı bir yana, sənin bu qədər vətən yanğın, millət yanğın var, sən bir şey yaz. Azərbaycan haqqında düşüncələrini, fikirlərini..." [16] Sonralar Tofiq Bağırovun yazdığı "Gəncə marşı" bu söhbətin nəticələrindən biri idi. Musiqisi Xalq artisti Faiq Sücəddinova aid mahnı əsl marş təntənəsini andırır və şəhərin qəhrəmanlıq rəmzlərini göz önünə sərir.

Gəncə həm Kəpəzdir, həm də Qoşqardır,
Torpağıma bağlı köklü çınardır.
Əyilməz vüqarı, əyilməz başı,
Nəsib bəy, Cavad xan yenə də vardır [6, s.25].

Şeirdə Gəncəni millətinin qeyrət rəmzi kimi göstərən Tofiq Bağırov bu adın çoxalmasına və tarixdə qalmasına cəhd edirdi. O, Gəncədə işlədiyi zaman tanıdığı şair və yazıçılardan xahiş edirdi ki, "Gəncə" adı ilə şeirlər, məqalələr yazsınlar. Təsadüfi deyil ki, sovet dönəmində Azərbaycan şair və bəstəkarlarının yaratdıqları Gəncə mahnıları məhz Tofiq Bağırovun fəaliyyəti dövrünə aiddir. Akademik Rafael Hüseynov Tofiq Bağırovla bağlı xatirələrində qeyd edir ki, "günlərin birində mənə Gəncəni vəsf edən 7 nəğmənin yazıldığı bir kaset hədiyyə etdi və dedi: "Bu mahnıların çoxu heç radionun fondunda yoxdu. Bunların hamısını 60-cı illərdə Gəncə Şəhər Partiya Komitəsinin birinci katibi olanda dostluq etdiyim tanınmış Azərbaycan şair və bəstəkarlarına yazdırmışdım ki, "Gəncə" kəlməsi hər gün eşidilsin, məişətimizə, həyatımıza daha çox daxil olsun" [10, s.7].

Tofiq Bağırovun xahişi ilə yazılmış həmin şeirlərdən biri yuxarıda nümunəsini verdiyimiz "Gəncə"dir. Sözləri Hüseyn Arifə məxsus bu poeziya nümunəsinə Tofiq Quliyev mahnı bəstələmişdir [10, s.136]. Hüseyn Arifin həmin şeiri yazıb göndərəndə Tofiq müəllimə ünvanladığı xüsusi müraciət belə idi: "Xalqımızın müdrik oğlu, dostum Tofiq Məsim oğluna ithaf. Tofiq müəllim, salam! Sizə söz verdiyim "Gəncə" şeirini göndərirəm. Sizə doğma Gəncə şəhərinin gələcək abadlığı, daha da gözəlləşib abadlaşması üçün yeni-yeni müvəffəqiyyətlər arzu edirəm" [5, s.26].

Tofiq Bağırovun xahişi ilə qələmə alınmış növbəti şeirlər isə Süleyman Rüstəmin "Gəncə" və "Ey könül" qəzəlləri idi. Şair "Gəncə" adlı qəzəlini Tofiq Bağırova göndərərkən ona bir neçə söz də əlavə etmişdi. "Qardaşım Tofiq! Ali Sovetin Rəyasət Heyətinin iclasında səninlə görüşdüm, həmin gün sənə ithaf etdiyim bu qəzəli yazdım. Xanəndələr bu qəzəli daha rəvan oxuya bilər. Bu

qəzəli kitabıma da salacağam. Dostlara salam. Hörmətlə: Süleyman Rüstəm. 2 dekabr 1965" [5, s.26].

Həqiqətən də sonralar bu qəzəl xanəndələrin ifasında çox gözəl səslənmişdir.

Elə ki güldü sənin bəxtinə dövran, Gəncə!
Hər yerin, hər bucağın oldu gülüstan, Gəncə!

Bilirəm, sənsiz üzüm gülməz, açılmaz könlüm,
Mən ürəkdən deyirəm: Can sənə qurban, Gəncə! [14, s.137]

"Onu Gəncə böyütmüşdür" adlı kitabda Rafael Hüseynovla Tofiq Bağırovun müsahibəsindən verilən hissədə ziyalı özü həmin dövrdə onun xahişi ilə yazılmış Gəncə ilə bağlı şeirlər haqqında qeyd edir ki, "bunlardan əlavə, İslam Səfərli, Osman Sarıvəlli özlərinin bu mövzuda gözəl şeirlərini yazdılar və Cahangir Cahangirov da mahnı yazdı" [10, s.136].

Həmin vaxt Rəsul Rza da Gəncəyə şeir yazdı, Telman Hacıyev isə musiqi bəstələdi. Azərbaycan Yazıçılar Birliyinin sədri, yazıçı, şair Anar Rzayev sözləri Rəsul Rzaya aid olan "Gəncə" mahnısı haqqında öz xatirələrini bölüşərkən yazır: "Bir-iki dəfə efirə gedəndən sonra "Gəncə" sözünə görə mahnını qadağan etdilər. Yalnız o vaxt Mərkəzi Komitədə məsul vəzifədə çalışan Tofiq Bağırovun təkidilə "Gəncə" mahnısı yenidən ara-sıra efirdə səslənməyə başladı [17, s.525].

Bütün bu görülən işlərin "Gəncə" adının yaddaşlardan silinməməsi və yenidən qaytarılmasında faydası çox olmuşdur. Ancaq bunlar asan məsələ deyildi. Tofiq Bağırovun Rafael Hüseynovla müsahibəsində, özünün də qeyd etdiyi kimi, buna görə ona dəfələrlə xəbərdarlıq ediblər ki, belə işlərlə məşğul olmasın [10, s.137]. Buna baxmayaraq, qəlbi Gəncə ilə döyünən Tofiq Bağırov kimi ziyalılarımız milli azadlıq simvolu olan Gəncə adının yaşadılması naminə mübarizə ruhlu fəaliyyətlərini bütün maneələrə baxmayaraq davam etdirmişlər.

**Nəticə.** Bu faktlar bir daha təsdiq edir ki, Azərbaycan ziyalısının qədim çinarlar vətəni Nizami yurduna, onun şəxsiyyətinə hörmət və məhəbbəti sonsuzdur. Gəncə adının yasaq olunduğu bir zamanda da dillərdən, ürəklərdən, düşüncələrdən silinməməsi və daim xatırlanması, xalqımızın milli dəyərlərinin qorunmasındakı əzminin bariz nümunəsidir.

Xalqın milli azadlıq ideyalarına və bu ideyaları özündə təcəssüm etdirən simvollara olan məhəbbəti, sadiqliyi, hörməti nəticədə qələbə çaldı. Düzdür, Sovet imperiyası 70 il mövcud olduğundan Gəncə şəhərinin adı da özünə gec qaytarıldı. Bu hadisə 1989-cu ildə baş verdi. Bununla da tarixi ədalətsizlik sona çatdı, haqq öz yerini tapdı. Belə bir məqamda Ulu Öndər Heydər Əliyevin bir kəlamı yada düşür: "Tarix hər şeyi öz yerinə qoyur" [11, s.214].